Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası



# İmadəddin Nəsimi
## 650

metodik vəsait

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# İmadəddin Nəsimi – 650

(metodik vəsait)

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait*

**BAKI – 2019**

**Tərtibçi:** **L.Əhmədova**

**Elmi redaktor:** **K.M.Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **A.Abdullayeva,**
*tarix üzrə fəlsəfə doktoru*

**İmadəddin Nəsimi – 650:** metodik vəsait / Tərt. ed. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva.- Bakı, 2019.- 57 s.

**© Azərbaycan Milli Kitabxanası, 2019**

***Mən mülki-cahan, cahan mənəm mən!***
***Mən həqqə məkan, məkan mənəm mən!***
***Mən ərş ilə fərşü kafü nunəm,***
***Mən şərhü bəyan, bəyan mənəm mən!***
***İnsanü bəşərsən, ey Nəsimi,***
***Həq der ki, haman, haman mənəm mən!***

**İmadəddin Nəsimi**

## Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2019-cu ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi tamam olur.

İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyya-

tının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir.

Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər.

İmadəddin Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 noyabr 2018-ci il

# Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 yanvar 2019-cu il

# Tərtibçidən

Bu il klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, anadilli poeziyamızda fəlsəfi şeirin əsasını qoyan dahi şair Seyid İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi qeyd edilir. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 11 yanvar 2019-cu il tarixli Sərəncamı ilə 2019-cu ili "Nəsimi ili" elan etmişdir.

Təqdim olunan metodik vəsaitdə ölməz şairin həyat və yaradıcılığı haqqında məlumatlar, 650 illik yubileyi çərçivəsində kitabxanalarda keçiriləcək tədbirlər haqqında tövsiyələr, görkəmli şəxslərin şair haqqında fikirləri və digər məlumatlar verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı şəh., Xaqani küç. 57
**E-mail:** metodik@anl.az

# İmadəddin Nəsiminin həyat və yaradıcılığı haqqında

Əsl adı Seyid Əli olan İmadəddin Nəsimi 1369-cu ildə Şamaxı şəhərində dövrünün tanınmış ziyalısı Seyid Məhəmmədin ailəsində dünyaya göz açmışdır. İlk təhsilini Şamaxıda alan Nəsimi, hələ gənc yaşlarından elmə böyük həvəs göstərmiş, klassik Şərq və yunan fəlsəfəsi, ədəbiyyat, astronomiya, məntiq elmlərini dərindən mənimsəmiş, İslamın əsaslarını, Quranı öyrənmişdir. Bu səbəbdən də Seyid Əliyə İmadəddin, yəni ***"dinin dayağı"*** ləqəbi verilmişdir.

Azərbaycan şairləri ilə yanaşı ərəb, fars, tacik yazıçılarının əsərlərinə yaxından bələd olan Nəsimi Yaxın Şərqin görkəmli mütəfəkkirləri olan Cəlaləddin Rumi, Şəms Təbrizi, Şeyx Mahmud Şəbüstəri, Sədi, Fəridəddin Əttar, İbn Sina, Muhiyyəd-din Ərəbi, Şibli kimi məşhur filosof və alimlərin əsərlərini mütaliə etmiş, dövrünün təriqətlərinə maraq göstərmişdir. O, sufi cərayanına, xüsusilə də X əsr mütəfəkkiri, məşhur sufi şeyxi Həllac Mənsur Hüseyninin fəlsəfi görüşlərinə rəğbət bəsləmiş, ***"Hüseyni", "Seyid Hüseyni", "Seyid"*** təxəllüsləri ilə şeirlər yazmışdır.

XIV əsrin sonlarında Bakıya gələn Seyid Əli hürufilik təliminin başçısı Fəzlullah Nəimi ilə görüşmüş, hürufilik təriqətini qəbul etmiş və onun adına uyğun olaraq ***"Nəsimi"*** təxəllüsü ilə şeirlər yazmağa başlamışdır. Çox qısa bir vaxt ərzində Nəsimi hürufilər arasında böyük hörmət qazanmış, şairin dünyagörüşü və bədii istedadı Şərqin iki məşhur dini-fəlsəfi təriqəti olan sufizm və hürufiliyin təsiri altında inkişaf edib formalaşmışdır.

Hürufiliyin siyasi təhlükəsindən qorxan Teymuri hakimiyyəti 1394-cü ildə Nəimini Naxçıvanda, Əlincə qalasının yaxınlığında işgəncə ilə edam etdirmişdir. Nəsiminin məşhur ***"Ayrılır"*** qəzəli

isə şairin öz mürşidinin cismani ayrılığı münasibətilə yazılmış mərsiyədir:

*Ey müsəlmanlar, mədəd ol yar pünhan ayrılır,*
*Ağlamayım neyləyim, çün gövdədən can ayrılır.*

*Ey sənəm, hicran əlində naleyi-zar eylərəm,*
*Gözlərimdən sanasan dəryayi-ümman ayrılır.*

Nəimi ölümündən əvvəl yazdığı ***"Vəsiyyətnamə"***sində Nəsimini öz davamçısı elan etmiş, onun edamından dərin sarsıntı keçirən Nəsimi ustadının vəsiyyətinə əsasən Təbrizə, oradan da Anadoluya (Türkiyə) getmişdir.

*Məkansız oldu Nəsimi məkanı yoxdur anın,*
*Məkana sığmayan ol biməkan məkanı nidər?*

– deyən şair Allahın varlığında öz varlığının yox olması fikri ilə yanaşı, köçəri bir həyat keçirdiyini də bildirmişdir. Ömrü boyu gəzib-dolaşan və bir dərviş həyatı keçirən Nəsimi daimi yaşayış yerinin adını çəkmir, özünü dərviş hesab edirdi. Amma bu dərviş adi dərviş deyil, haqq aşiqi idi.

I Sultan Muradın zamanında Bursa və Anadoluda hürufilər çox ciddi şəkildə cəzalandırılırdı. Şair bu yerlərdə hürufiliyi təbliğ etdiyi üçün dəfələrlə həbs olunmuşdur. Ona görə də Nəsimi Anadoluda çox qala bilməyib Hələbə (Suriya) getmişdir.

Hələb şəhərində hürufilik ideyalarını yaymağa başlayan şair burada da təqiblərə məruz qalaraq zindana atılmışdır. Elə buna görədir ki, şairin sirlər dolu şeirlərinin onun həyatı üçün narahatlıq gətirəcəyindən qorxan qardaşı Şahı Xəndan (Şaxandan, qəbri Şamaxı şəhərindədir) Nəsimiyə belə bir beyt yazıb göndərmişdir:

*Gəl bu sirri kimsəyə faş eyləmə,*
*Xanü xası aməyə aş eyləmə.*

Lakin öz iradəsindən dönməyən şair qardaşına cavab olaraq yazmışdır:

*Dəryayi-mühit cuşə gəldi,*
*Kövnilə məkan xüruşə gəldi.*
*Sirri-əzəl oldu aşikara,*
*Arif necə eyləsin müdara?*

Şair 1417-ci ildə Misir məmlükləri və Hələb ruhaniləri tərəfindən dinsizlikdə günahlandırılaraq zindana salınmış, Misir sultanı tərəfindən edam olunmasına fərman verilmişdir. Beləliklə, əsl həqiqət aşiqi olan Nəsimi öz əqidəsi yolunda doğma vətənindən çox-çox uzaqlarda Hələb qalası ətrafında faciəli şəkildə edam olunmuşdur. Şairin məzarı Hələb şəhərində onun adını daşıyan küçədə yerləşir.

Ümummilli lider Heydər Əliyev 1970-ci ildə Suriyada olarkən Hələb şəhərinə getmiş və şairin məzarını ziyarət etmişdir. Sonralar Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin məqbərəsi və onun ətrafı abadlaşdırılmışdır.

***

Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şeirimizin özülünü qoymuş, söz sənətimizi forma və məzmunca zənginləşdirmiş, özündən sonrakı nəsillər üçün ədəbi irs qoyub getmişdir. Yaradıcılığa aşiqanə şeirlərlə başlayan Nəsimi sonralar dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazmış, Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəlin əsasını qoymuşdur. Zərrədə günəş axtararaq varlığın bir vücuddan yarandığını deyən Nəsimi insanları gözəl və çirkin deyə ikiyə bölmür, milli ayrıseçkilik axtarmırdı. Könül tərbiyəsi və gözəlliyini insan ömrünün qayəsi sayan şair şeirlərində insana, insan ləyaqətinə, onun qüdrətinə olan yüksək inamını tərənnüm etməklə insanı həyatın yaradıcısı, həyati gözəlliklərin əsl mənbəyi kimi vəsf etmişdir. Onun lirik qəhrəmanı düşünən və duyan kamil

insan idi. O insan ki, nəfs yolunu deyil, ali bir eşq yolunu tutaraq kamala çatır, haqqa qovuşur. Haqqı özündə taparaq həqiqəti, gerçəkliyi duyur.

*Bulmuşam həqqi, ənəlhəq söylərəm,*
*Həq mənəm, həq məndədir, həq söylərəm.*
*Gör bu əsrarı nə müğləq söylərəm,*
*Sadiqəm qövlümdə, səddəq söylərəm.*

Nəsimi yaradıcılığındakı ***"ənə - l" - "mən"*** həyatdır, gözəllikdir, kainatdır, bütün sirlər onda gizlənmişdir. O, elə bir gözəllikdir ki, özünü dərk etməklə ülvi bir varlığa çevrilib ilahiləşir və könlündə ilahi nuru gəzdirir.

Şairə görə kamil insanın ən gözəl xüsusiyyəti öz nəfsini yenməsidir. Öz nəfsini yenən insan gizli sirləri duya bilir. Gizli sirləri duymaq isə həqiqəti tapmaq deməkdir. Ən böyük həqiqət də öz varlığındakı ilahi qüvvəni duymaqdır.

*Ey həq əhli, yəqin imiş bu xəbər*
*Kim, bilən nəfsinidir əhli-nəzər.*

*Nəfsini kim ki, bildi buldu həqi,*
*Nəfsini bilməyənlər oldu şəqi.*

Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələ təşkil edən Nəsimi yaradıcılığı dilçilik, xüsusilə Azərbaycan türkcəsinin tarixi inkişafını öyrənmək baxımından müstəsna əhəmiyyətə malikdir. Zəngin və orijinal dil imkanlarına malik olan Nəsimi canlı xalq danışıq dilindən bacarıqla istifadə etməklə yanaşı, klassik şeir dilində çox yayılmış bədii ifadələri də məharətlə işlətmişdir. Şair Azərbaycan şeirinin şəkli xüsusiyyətlərinin təkmilləşməsində çox mühüm rol oynamış, əruz vəzninin bəhrlərini Azərbaycan dilinin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışmışdır. Altı yüz əlli il öncə yaşayıb yaratmasına baxmayaraq

onun 3 dildə yazdığı müləmmələr, müstəzad, mürəbbe və tərcibəndlər, rübailər, tuyuğlar, qəzəllər poeziyamıza aydınlıq, şəfqət gətirmiş, ana dilimizi və bədii sözümüzü yeni-yeni zirvələrə qaldırmışdır. ***“Dəryayi mühit cuşa gəldi...”, “Məndə sığar iki cahan...”, “Mərhaba...”, “Dilbəra, mən səndən ayrı...”, “Əzəldən nur idim, şimdi həq oldum...”, “Dün gecə bir dilbər ilə”, “Etməgil...”, “Firqətin yandırdı bağrım...”, “Üzün günündən ey qəmər”, “Hardasan”, “Ey könül, şad ol...”, “Ağrımaz”*** və s. qəzəlləri Nəsimi irsinin parlaq nümunələrindəndir. Bu zəngin irs bu gün də Azərbaycanla yanaşı, dünyanın bir sıra ölkələrinin kitabxanalarında – Avstraliya Milli Kitabxanası, Britaniya Muzeyi Kitabxanası, Düşənbə Əlyazmalar Fondu, Tehran Milli Kitabxanası, Təbriz Milli Kitabxanası, İstanbul Topqapı Sarayı Muzeyi Kitabxanası, Antalya Elmalı Xalq Kitabxanası və digər kitabxanalarda mühafizə olunur.

Nəsiminin ana dilində yazdığı əsərlər Azərbaycan şeirinin inkişafına, o cümlədən Füzuli, Nəvai, Şeyxi, Niyazi və başqa böyük sənətkarların yaradıcılığına qüvvətli təsir göstərmişdir. Bundan başqa Həbibi, Kişvəri, Həqiqi, Şah İsmayıl Xətai kimi şairlərin yaradıcılığında öz əksini tapan sufi-hürufi inam və düşüncələri də şairin ölməz irsinin təsiri ilə əlaqədardır.

Nəsiminin əsərləri ilk dəfə 1844, 1871 və 1880-ci illərdə İstanbulda nəşr edilmişdir. Azərbaycanda isə 1923-cü ildə *“Maarif və mədəniyyət”* jurnalının 1-ci nömrəsində şairin bir sıra qəzəlləri - ***“Ey cənnətin xəndan gülü...”, “Firqətin dərdindən ey can...”, “Dəryayi mühit cuşa gəldi...”, “Məndə sığar iki cahan...”*** və s. çap olunmuşdur. 1925-ci ildə görkəmli ədəbiyyatşünas alim, maarifçi Firidun bəy Köçərli ***“Azərbaycan ədəbiyyatı tarixi materialları”*** kitabında şairin qəzəlini çap etdirmişdir. 1926-cı ildə ədəbiyyatşünas alim Salman Mümtaz Nəsiminin qəzəllərini ***“Seçilmiş şeirlər”*** və ***“Şeirlər”*** adı ilə nəşr etdirmişdir.

Şairin həyat və yaradıcılığı haqqında ədəbiyyatşünas alim, akademik Həmid Araslı 1942-ci ildə **“Fədakar şair (İmadəddin**

**Nəsimi)"** oçerkini qələmə almışdır. O, həmçinin, M.Rəfili ilə birgə ***"Qədim ədəbiyyat"*** *(Nəsimidən bəhs olunur, 1942, 1945),* ***"İmadəddin Nəsimi"*** *(1972)* və Nəsiminin 600 illik yubileyi ərəfəsində nəşr olunan ***"Nəsimi"*** (Azərbaycan, rus, ingilis, fransız, alman, ərəb, fars dillərində, 1973) kitablarında şairin həyatının bəzi qaranlıq məqamlarına aydınlıq gətirmiş, Nəsimi şeirinin dil və poetik ifadə gözəlliklərindən söz açmışdır.

Şairin ana dilində divanının elmi-tənqidi mətnini ilk dəfə Azərbaycan alimlərindən professor Cahangir Qəhrəmanov nəşrə hazırlamışdır. O, Bakı, Leninqrad (indiki Sankt-Peterburq) və İrəvan əlyazmaları fondlarında saxlanılan beş nüsxəni İstanbul və Bakı nəşrləri ilə tutuşduraraq şairin ana dilində əsərlərinin ilk elmi tənqidi mətnini 1973-cü ildə ərəb əlifbası ilə çap etdirmişdir.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması, bu irsin sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur. Yubiley ilində şairin həm Azərbaycan, həm də başqa dillərə tərcümə edilmiş kitabları, haqqında elmi tədqiqat əsərləri, biblioqrafiya (M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən) işıq üzü görmüş, yubiley sərgiləri açılmışdır. Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsimiyə bir sıra əsərlər – Xalq yazıçısı İ.Hüseynovun ***"Məhşər"*** romanı, Xalq şairi R.Rzanın ***"Son gecə"*** poeması, Xalq şairi Qabilin ***"Nəsimi"*** poeması, Ə.Kərimin ***"Şəhidliyin zirvəsi"*** və Ə.Kürçaylının ***"Nəsimi"*** şeirləri, F.Əmirovun ***"Nəsimi dastanı"*** xoreoqrafik poeması, C.Cahangirovun ***"Nəsimi"*** kantatası, A.Rzayevin ***"Nəsimi"*** simfonik poeması, M.Abdullayev tərəfindən çəkilmiş portret, ***"Nəsimi"*** filmi (tammetrajlı) həsr olunmuş, şeirlərinə musiqi bəstələnmiş, poçt markası buraxılmışdır. 1979-cu ildə Bakı şəhərində Nəsiminin heykəli ucaldılmış (heykəltəraşlar T.Məmmədov, İ.Zeynalov), Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutuna,

Bakının ən böyük rayonlarından birinə və metro stansiyasına onun adı verilmişdir.

2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı ilə Nəsiminin 2 cilddə ***"Seçilmiş əsərləri"*** təkrar nəşr olunmuşdur. 2012-ci ilin sentyabrında Heydər Əliyev Fondu fransız dilində Nəsiminin poeziyasına həsr olunmuş kitab nəşr etmişdir. Kitabda şairin qəzəlləri, məsnəviləri, rübailəri toplanmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə ölkəmizdə ilk dəfə ***"Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı"*** təntənəli şəkildə keçirilmişdir.

Festivalın keçirildiyi dörd gün ərzində Bakı və Şamaxıda ölməz şairin həyat və yaradıcılığına həsr edilmiş müxtəlif tədbirlər - sərgilər, ədəbi-bədii gecələr, musiqili kompozisiyalar, simpoziumlar, mühazirələr, seminarlar və s. təşkil olunmuşdur.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə 2018-ci il noyabr ayında Moskvada da "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" təşkil edilmişdir. Festival çərçivəsində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) Nəsiminin büstünün açılış mərasimi olmuş, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda (MDU AAÖİ) ***"Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində"*** mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il noyabr ayının 15-də "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və 2019-cu il yanvar ayının 11-də "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi

haqqında” imzaladığı sərəncamlar dövlət başçısının ədəbiyyata, mədəniyyətə verdiyi yüksək dəyərin növbəti parlaq nümunəsidir.

Həmçinin 2018-ci il dekabrın 18-də Türkiyənin Kastamonu şəhərində TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının 36-cı iclasında 2019-cu il TÜRKSOY tərəfindən “Böyük Azərbaycan şairi İmadəddin Nəsimi ili” və türkiyəli görkəmli ozan-şair “Aşıq Veysəl ili” elan edilmişdir.

## İmadəddin Nəsimi irsinin kitabxanalarda təbliği

Böyüməkdə olan gənc nəslin yüksək mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyə olunmasında, oxucuların mənən kamilləşməsində Nəsimi irsinin xüsusi əhəmiyyəti vardır. İmadəddin Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin ***"Nəsimi ili"*** elan edilməsilə əlaqədar olaraq kitabxanalara tədbirlər planı hazırlamaq və buna müvafiq işlərin həyata keçirilməsi tövsiyə olunur.

Şairin irsinin geniş oxucu kütləsi arasında təbliği və məsafədən asılı olmayaraq dünyanın istənilən yerində yaşayan nəsimisevərlərin bu ölməz irsdən istifadə etməsi üçün kitabxanaçılara sayt və sosial şəbəkələrdə **"Böyük ideallar şairi Nəsimini tanıyaq, tanıdaq"** adı ilə il ərzində Nəsiminin şeirləri, kitabları (əgər varsa, linki), haqqında yazılmış kitab və məqalələr, kitabxanada keçirilən tədbirlərdən qısa videoçarxlar, audio resurslar, eyni zamanda mövzu üzrə faydalı linkləri paylaşmaq məqsədəuyğun olar.

İlk növbədə şairin 650 illik yubileyi və *"Nəsimi ili"* ilə bağlı **elektron məlumat bazası**nın hazırlanması və keçirilən tədbirlər zamanı onlardan istifadə olunması tövsiyə edilir. Elektron məlumat bazasını hazırlayarkən kitabxanaçılar öz kitabxana fondları ilə yanaşı, Milli Kitabxananın fondunda və elektron kitabxanasında olan resurslardan istifadə edə bilərlər.

**Nümunə:**

**"İmadəddin Nəsimi – 650"**
**Elektron məlumat bazası**

**Rəsmi sənədlər**
**Şairin həyat və yaradıcılığı**
**Nəsimi və hürufilik**

**Görkəmli şəxslər İmadəddin Nəsimi haqqında**
**Əsərləri**
- Azərbaycan dilində
- Xarici dillərdə

**Haqqında**
- Kitablar
- Məqalələr
- Dissertasiya və avtoreferatlar

**Nəsimi əlyazmaları dünya kitabxanalarında**
**Nəsimi bədii ədəbiyyatda və incəsənətdə**
- İ.Hüseynov ***"Məhşər"*** romanı
- R.Rza **"Son gecə"** poeması
- Qabil ***"Nəsimi"*** poeması
- Ə. Kərim ***"Şəhidliyin zirvəsi"*** *şeiri*
- Ə. Kürçaylı **"Nəsimi"** şeiri
- F.Əmirov ***"Nəsimi dastanı"*** xoreoqrafik poema
- C.Cahangirov ***"Nəsimi"*** kantatası
- A.Rzayev ***"Nəsimi"*** simfonik poeması
- F. Əlizadə **"Nəsimi-passion"** əsəri
- M.Abdullayev tərəfindən çəkilmiş portret
- ***"Nəsimi"*** filmi (tammetrajlı)
- Şeirlərinə bəstələnmiş musiqilər və s.

**Xatirəsinin əbədiləşdirilməsi**
**Fotoqalereya**
**Videoqalereya.**

Qeyd edək ki, müntəzəm olaraq yenilənən məlumat bazası Nəsimi irsi ilə maraqlanan mütəxəssislərə, tədqiqatçı-alimlərə, eləcə də geniş oxucu kütləsinə şairlə bağlı müxtəlif sənədlərlə tanış olmaqda, bu resurslardan rahat istifadə etməkdə yaxından köməklik edəcəkdir. Bazada yerləşdirilən resurslar kitabxanaya gələ bilməyən fiziki qüsurlu oxucular üçün də faydalı olacaqdır.

Nəsimi irsini, onun poeziyasında ifadə edilən mühüm əxlaqi mənəvi dəyərləri yeniyetmə və gənclər arasında, eləcə də ölkədən

kənarda təbliğ etmək məqsədilə kitabxanaçılar region daxilində bir neçə rayon üzrə və ya dünya kitabxanaları ilə **telekonfranslar** keçirə bilərlər.

Telekonfransın təkilatçısı olan kitabxana mövzunun və ünsiyyət dilinin müəyyənləşdirilməsi, iştirakçı kitabxanaların seçilməsi, onların texniki imkanlarının öyrənilməsi, çıxışçıların təyin edilməsi, müzakirələrin aparılması və digər bu kimi təşkilati işləri həyata keçirməlidir. Texniki imkanları olan kitabxanalarda ***"Klassik Azərbaycan şairi – İmadəddin Nəsimi", "Nəsiminin fəlsəfi şeirləri", "Hürufilik təriqəti və İmadəddin Nəsimi irsi", "Nəsimi və sufizm"*** və s. mövzularda telekonfranslar keçirmək olar. Telekonfransa hazırlıq işləri tamamlandıqdan sonra ilk olaraq kitabxananın saytında, sosial şəbəkələrdə konfransla bağlı anons yerləşdirilməlidir. Telekonfransın təşkili zamanı kitabxanaçılar Regional Mədəniyyət İdarələri, muzey mərkəzləri, məktəb və liseylərlə əlaqəli işləməlidir.

Şairin 650 illik yubileyi və "Nəsimi ili" çərçivəsində kitabxanalarda bir sıra tədbirlər təşkil etmək tövsiyə edilir:

- Virtual kitab sərgisi, buktreyler və videoçarxların hazırlanması;
- ***"Nəsimi dünyası"*** poeziya gecəsi, ***"Ən yaxşı qiraətçi"*** və ***esse*** müsabiqələrinin, ədəbi diskussiya, virtual dəyirmi masanın keçirilməsi;
- ***"Kitab karvanı"*** layihəsinin təşkili;

İlk olaraq ölməz şairə, onun ədəbi irsinə həsr olunmuş virtual kitab sərgisini hazırlamaq məqsədəuyğun olar.

Virtual kitab sərgisini hazırlayan zaman həm kitabxananın fondunda olan sənədlərdən, həm də elektron resurslardan istifadə etmək lazımdır. Slaydlar şəklində hazırlanan sərgidə şairin həyat və yaradıcılığı haqqında məlumatlar, əsərləri (Azərbaycan və digər dillərdə), haqqında yazılan əsərlər, qəzet və jurnal məqalələri, Nəsiminin irsi ilə bağlı maraqlı faktlardan ibarət izahlı mətnlər, audiovizual sənədlər və s. öz əksini tapa bilər. Virtual kitab sərgisini hazırlayan zaman kitabın üz qabığı,

biblioqrafik təsviri, annotasiyası və əgər mümkünsə, kitabın onlayn versiyası və ya linkini yerləşdirmək olar.

Nümunə:

**Virtual kitab sərgisi**

**Slayd 1: Sərginin başlığı**

***"Böyük Azərbaycan şairi İmadəddin Nəsimi – 650"***

**Slayd 2**: **Azərbaycan Respublikası Prezidentinin Sərəncamları**

- *Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 15 noyabr 2018-ci il // Azərbaycan.- 2018.- 16 noyabr.- S.2.*
- *Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11 yanvar 2019-cu il //Azərbaycan.-2019.- 12 yanvar.- S.5.*

**Slayd 3: Əsərləri**

***Azərbaycan dilində:***

- ***Seçilmiş əsərləri**: iki cilddə / İmadəddin Nəsimi; rəssam A.Rəsul; burax. məsul S.İsmayılova; dizayn Z.Abbasov.- Bakı: Şərq-Qərb, 2013.- Cild 1: Qəzəllər.- 319 s.*
- ***Seçilmiş əsərləri**: iki cilddə /* İmadəddin *Nəsimi; rəssam A.Rəsul; burax. məsul S.İsmayılova; dizayn Z.Abbasov.-* Bakı: Şərq-Qərb, 2013.- Cild 2: İctimai-fəlsəfi şeirlər.- 345 s.
- ***Seçilmiş əsərləri**: [şərhlərlə]/ İmadəddin Nəsimi; tərt. ed., şərhl. və ön sözün müəl. X. Yusifli.- Bakı: Altun Kitab, 2005.- 314 s.; 20 sm.*
- ***İraq divanı** /İmadəddin Nəsimi; tərt. ed. və ön soz müəl. Q.Paşayev; red., lüğət və şərhlərin müəl. M.Əsgərov.- Bakı: CBS-PP, 2018.- 383, [1] s.*

***Rus dilində***

➢ ***Избранная лирика***: *в двух томах / Имадеддин Насими; худож. М.Абдуллаев; [перев. С. Иванов [и др.]].- 1 Том.- Баку: Азернешр, 1973.- 359, [1] с.*

➢ ***Я не вмещусь в этот мир***: *[стихи] / Имадеддин Насими; [Сост., ред., авт. предисл., послесл., слов. А.Сафарли; худож. А.Мамедов].- Баку: Гянджлик, 1991. - 380,[2] с.*

***İngilis dilində***

➢ ***Poems*** */ Imadeddin Nesimi; comp. V.Aslanov; transl. P.Tempest.- Baku: Yazichy, 1984.- 70 p.*

**Slayd 4: Nəsimi haqqında kitablar**

***Azərbaycan dilində***

➢ ***İmadəddin Nəsimi:*** *biblioqrafiya / AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu; tərt. ed. A.C.Xəlilov, red. N. Göyüşov.- Bakı: Elm və təhsil, 2013.- 111 s.*

➢ ***Araslı, H.*** *İmadəddin Nəsimi: həyat və yaradıcılığı / Həmid Araslı; red. M.Quluzadə.- Bakı: Azərnəşr, 1972.- 73 s.*

➢ ***Həsənoğlu, Ə.*** *İmadəddin Nəsiminin "İraq divanı"na şərhlər / Əbülfət Həsənoğlu.- Bakı: Mütərcim, 2015.- 575 s.*

***Türk dilində***

➢ ***Aktaş, H.*** *Yeni Türk şiirinde Seyyid Nesimi okulu və misyonu/Aktaş Hasan.- Edirne: Yort Savul Yayınları, 2004.- 176 s.*

➢ ***Araslı, H.*** *İmadeddin Nesimi: hayat ve yaratımı / Hamid Araslı; çev. C.Cabbarov; ed. Ş.Sona.- Bakü: Azerbaycan Devlet Neşriyyatı, 1972.- 62 s.*

➢ ***Ayan, H.*** *Nesîmî hayatı, edebi kişiliği, eserleri ve Türkçe divanının tenkitli metni /Hüseyin Ayan.- Ankara: Türk dil Kurumu Yayınları, 2002.-937 s.*

➢ ***Ünver. M.*** *Hurufilik ve Kuran. Nesimi Örnegi /Mustafa Ünver.- Ankara, Fecr Yayın evi, 2003.- 270 s.*

***İngilis dilində***

➢ ***Imadaddin Nasimi****: poet, 1369-1417/ Ministry of Culture and Tourism Republic of Azerbaijan; consulting V.Bahmanli; publishing M.Khan; trans. K.Nasibova; editor N.Jabbarli, J.Huseynov; design T.Farzi; art V.Saftarov.- Baku: Khan, 2015.- 36 p.*

***Rus dilində***

➢ ***Имададдин Насими*** */автор и руководитель проекта И.С. Раимов; художник Н. И. Фатуллаева.-Москва: Санкт-Петербург: "Диля", 2001.- 353 с.*

**Slayd 5: Qəzet və jurnallarda dərc olunan məqalələr**

***Azərbaycan dilində***

➢ ***Əliyeva, G.*** *Şeirimizin "quş dili": İmadəddin Nəsiminin poeziyası haqqında qeydlər / Gülşən Əliyeva // 525-ci qəzet.- 2017.- 6 may.- S.14.*

➢ ***Həbibbəyli, İ.*** *Cahana sığmayan Azərbaycan şairi: 2019-cu il "Nəsimi İli"dir / İsa Həbibbəyli // Azərbaycan.- 2019.- 16 yanvar.- S.1; 6.*

➢ ***Hüseynov, R.*** *Məkansız və zamansız / Rafael Hüseynov // 525-ci qəzet.- 2019.- 26 yanvar.- S.8-9.*

➢ ***Kərimli, T.*** *Nəsimi əzablarından Nəsimi harayına / Teymur Kərimli // 525-ci qəzet.- 2018.- 24 yanvar.- S.7.*

***Rus dilində***

➢ ***Ислам, А.*** *Солнце поэзии и любви Насими: Состоялась презентация иракского "Дивана" великого азербайджанского поэта / Афет Ислам // Каспий.- 2018.- 10 июля.- С.7.*

➢ ***Багиров, А.*** *Творец божественной поэзии / Абузар Багиров // IRS Наследие.- 2014.- № 2 - С.4-10.*

**Slayd 6: Sitat:**

"Nəsimi bir şair kimi əvəzedilməzdir. İzəddin Həsənoğlu, Qazi Bürhanəddin, Qul Əli ilə yanaşı, Nəsimi də anadilli poeziya-

mızın beşiyi başında durur və məhz ona görə Azərbaycan ədəbiyyatının çoxəsrlik humanist ənənələrini öz əsərlərində yaşadıb, davam və inkişaf etdirib."

**Teymur Kərimli,**
*akademik*

**Slayd 7: Nəsimi və hürufilik təlimi**

➢ ***Babayev, Y.*** *Təriqət ədəbiyyatı: sufizm, hürufizm: ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti / Yaqub Babayev; elmi red. E. Quliyev.- Bakı: Elm və təhsil, 2011.- 158, [2] s.*

**Slayd 8**: **Nəsimi - şair və ədiblərin gözü ilə**

Sərginin bu bölməsində şairə həsr olunmuş şeir, poema, roman və s.-dən seçmələr yerləşdirilə bilər. Əgər kitabxananın texniki imkanları olsa həmin əsərlərin (R.Rza **"Son gecə"** poeması, Qabil **"Nəsimi"** poeması, Əli Kərim **"Şəhidliyin zirvəsi"** şeiri, Ə.Kürçaylı **"Nəsimi"** şeiri, İ.Hüseynovun **"Məhşər"** romanı və s.) tam mətnlərini və yaxud da yerləşdiyi saytların linkini təqdim etmək olar.

**Slayd 9: Sərgini hazırlayan kitabxananın ünvanı, əlaqə telefonları, saytı və e-mail ünvanı**

Qeyd edək ki, slaydlar artırıla da bilər. Sərginin nümayişi zamanı F.Əmirovun "Nəsimi dastanı" xoreoqrafik poeması, C.Cahangirovun "Nəsimi" kantatası, A.Rzayevin "Nəsimi" simfonik poeması, F.Əlizadənin "Nəsimi-passion" əsərindən həmçinin, şeirlərinə bəstələnmiş musiqilərdən və səsli mətnlərdən də istifadə oluna bilər.

Anadilli poeziyamızın inkişafında xüsusi xidmətləri olan İmadəddin Nəsiminin ana dilində yazdığı şeirləri istər orta əsrlərdə, istərsə də müasir dövrdə Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə özündə əks etdirməkdədir. Məhəbbət və gözəllik, ağıl və idrak nümunəsi olan Nəsimi poeziyası öz oxucusuna müdriklik aşılamaqla onu mənən

yüksəldir. Bu ölümsüz şeiriyyatı gənc nəsillərə daha yaxşı tanıtdırmaq üçün şairin yaradıcılığına həsr olunmuş ***“Nəsimi dünyası”*** adlı **poeziya gecəsi**nin keçirilməsi tövsiyə olunur. Poeziya gecəsi eyni zamanda oxucuda bədii zövqü formalaşdırır və ciddi mütaliəyə maraq yaradır.

Regionda fəaliyyət göstərən mədəniyyət evləri, muzeylər, məktəblər, liseylər, musiqi məktəbləri ilə birgə təşkil edilən poeziya gecəsini kitabxanaçılar tərəfindən hazırlanmış, şairin həyat və yaradıcılığını əks etdirən geniş kitab sərgisinin açılışı ilə başlamaq məqsədəuyğundur. Tədbirdə bədii qiraət ustalarının, ədəbiyyat və mədəniyyət xadimlərinin, şair və yazıçıların, ictimaiyyət nümayəndələrinin çıxışları gecəni daha da maraqlı edər. Daha sonra gecədə fəal oxucuların ifasında Nəsiminin həyat və yaradıcılığı haqqında çıxışlar, şeirlərindən parçalar səsləndirmək, musiqili kompozisiyalar, kiçik səhnəciklər nümayiş etdirmək olar. Tədbir boyunca Nəsimiyə həsr olunmuş məlumat bazasının, ***“Nəsimi”*** filmindən fraqmentlərin, şairin şeirləri əsasında hazırlanmış videoçarxların və s. nümayişi, şeirlərinə bəstələnmiş mahnıların səsləndirilməsi tövsiyə edilir.

Tədbirdən öncə kitabxanaçılar Nəsimi haqqında qısa tövsiyə xarakterli ədəbiyyat siyahıları, bukletlər, vərəqələr, əlfəcinlər hazırlaya bilərlər.

Poeziya gecəsində paytaxt və bölgələrimizdə yaşayıb-yaradan gənc, istedadlı nəsimisevərlərin şairə həsr olunmuş şeirlərinin təqdimat mərasimləri də keçirilə bilər. Bu həm də paytaxt və bölgələrimizdəki gənc istedadların aşkar olunmasına, onların ədəbi mühitdə tanınmasına da yardımçı ola bilər.

Silsilə tədbirlərdən biri kimi Nəsimi şeirləri üzrə ***“Ən yaxşı qiraətçi”*** müsabiqəsi keçirilə bilər. Müsabiqədə şairin ictimai-fəlsəfi qəzəlləri, lirik şeirləri, məsnəvi, müstəzad, tərcibənd və s. anlaşıqlı şəkildə və xüsusi intonasiya ilə söyləmək, şeirləri təhlil etmək tələb edilir. Müsabiqəyə kitabxananın fəal oxucularının, eləcə də xidməti ərazidə yerləşən məktəb şagirdlərinin cəlb edilməsi daha faydalı olar. Söyləniləcək şeir nümunələri

iştirakçılar tərəfindən sərbəst seçilə və ya kitabxanaçılar tərəfindən tövsiyə oluna bilər. Nəsimi şeirini ən yaxşı söyləyən və düzgün təhlil edən şəxs müsabiqənin qalibi seçilir. Həvəsləndirmə məqsədilə qaliblərə kitablar hədiyyə etmək və fəxri fərmanlarla mükafatlandırmaq olar. Kitabxanaçılar müsabiqə iştirakçılarına şairin ***"Mərhəba, xoş gəldin, ey ruhi-rəvanım, mərhəba", "Şol ləbi şirinə, yarəb...", "Nuri-təcəlli şöləsi düşdü əzəldən alına", "Aşiq bəla yolunda gərək kim, həmul ola", "Vəchində peydadır sənin..."*** və s. qəzəllərini, ***"Sığmazam", "Sirri-ənəlhəq söylərəm...", "Mən mülki-cahan…", "Ənəlhəq söylərəm həqdən..."*** və s. ictimai-fəlsəfi şeirlərini, ***"Sal bürqəyi üzündən...", "Saldı xəbəri-hüsnünüz...."*** və s. müstəzadlarını, ***"Üz üzrə bu rəsm xal olurmu", "Müshəfi-natiqəm, kəlam oldum", "Pərdə içində çalınır bir saz"*** və s. tərcibəndlərini, ***"Dəryayi-mühit cuşa gəldi", "Ey haq əhli, yəqin imiş bu xəbər"*** və s. məsnəviləri təqdim edə bilərlər.

Müsabiqənin keçirilməsi barədə kitabxananın saytında, sosial şəbəkələrdə və yerli qəzetlərdə elan yerləşdirilməsi tövsiyə edilir. Əgər müsabiqə regional miqyasda təşkil ediləcəksə bu zaman Regional Mədəniyyət İdarəsinin saytında müsabiqə ilə bağlı elan və anons verilir, müsabiqənin şərtləri göstərilir. Kitabxanaçılar texniki vasitələrin köməyi ilə müsabiqəyə təqdim olunan şeir nümunələrinin audio və video yazılarını və müsabiqə haqqında video çarxları hazırlayıb sayt və sosial şəbəkələr vasitəsilə geniş təbliğ edə bilərlər.

Layihə çərçivəsində həyata keçirilən digər tədbirlərdən biri də ***esse müsabiqəsinin*** təşkilidir. Müsabiqənin keçirilməsi Nəsimi irsinin təbliği ilə yanaşı, uşaq və gənclərdə yaradıcılıq istedadlarının aşkarlanmasına və onlarda yazı mədəniyyətinin inkişafına müsbət təsir göstərə bilər.

Esseler bir qayda olaraq kitabxanaçılar tərəfindən müəyyən olunmuş mövzular ətrafında yazılmalıdır. Buraya ***"Nəsimi və kamil insan", "Anadilli poeziyamızın inkişafında Nəsiminin rolu", "Məndə sığar iki cahan..." qəzəlinin təhlili", "Nəsimi -***

***ədəbiyyat və incəsənətdə", "Nəsiminin tərbiyəvi görüşləri", "Həllac Mənsur təriqətinin Nəsimi yaradıcılığında rolu"*** və s. mövzuları aid etmək olar. Ən yaxşı esse yazan iştirakçı münsiflər heyəti tərəfindən seçilir və mükafatlandırılır. Esse müsabiqəsini keçirən zaman kitabxanaçılar ilk növbədə müsabiqənin şərtləri ilə bağlı elan hazırlamalı, sayt və ya sosial şəbəkədə informasiya yerləşdirməlidir. Müsabiqənin şərtlərini aşağıdakı kimi vermək olar:

**Nümunə**

***"Anadilli poeziyamızın inkişafında Nəsiminin rolu" esse müsabiqəsinin şərtləri***

- *Müsabiqə Azərbaycanın böyük şairi İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili"nə həsr olunur;*
- *Müsabiqəyə Times New Roman şrifti ilə yazılmış, işarələrin sayı minimum 7000, maksimum 10000 olmaqla Azərbaycan dilində olan esselər qəbul edilir;*
- *Müsabiqədə iştirak etmək istəyənlər yazılarını ____ 2019-cu il tarixinədək _____ elektron poçt ünvanına göndərə bilərlər.*
- *Müsabiqəyə esse göndərən müəlliflərdən həmçinin tərcümeyi-hal, e-meyl ünvanı və əlaqə nömrəsi də tələb olunur.*

*Qaliblər münsiflər tərəfindən müəyyən olunacaqdır.*

***Mükafatlar:***

- *I yerin qalibi diplom və hədiyyə ilə təltif olunacaqdır;*
- *II və III yerin qaliblərinə diplomlar təqdim ediləcək;*
- *Münsiflər tərəfindən bəyənilmiş esselər kitabxananın saytı və sosial şəbəkələrdə paylaşılacaqdır;*

Kitabxanaçılar şairin lirik şeirlərinin oxucular tərəfindən daha yaxşı mənimsənilməsi üçün **ədəbi diskussiyalar** keçirə bilərlər.

Diskussiyanın mövzusu, iştirakçılar, həmçinin, diskussiyanın keçiriləcəyi ünvan, vaxt və tarix kitabxanaçı tərəfindən öncədən müəyyən olunmalıdır.

***"Dilbəra, mən səndən ayrı..."*** lirik qəzəli haqda ədəbi diskussiya keçirmək olar. Aparıcı tədbiri açıq elan edərək Nəsiminin

həyatı və yaradıcılığı, diskussiyanın mövzusu olan qəzəl haqqında iştirakçıları məlumatlandırır. Təxminən 1- 2 saat davam edən tədbirdə aşağıdakı suallar ətrafında müzakirələr aparılması tövsiyə olunur:

- *Qəzəl hansı bəhrdə yazılmışdır?*
- *Qəzəldə çətin anlaşılan sözlər hansılardır?*
- *Qəzəlin birinci beytində nədən söhbət açılır?*
- *Qəzəlin ikinci beytini öz sözlərinizlə ifadə edin.*
- *Qəzəli məzmununa görə neçə hissəyə bölmək olar?*
- *Qəzəldə istifadə olunan "vəsli-camal", "bimar", "danla fəğan" və s. sözlərinin mənası nədir?*

Diskusiyanın sonunda iştirakçılar qəzəlin ifadəli oxusunu da həyata keçirə bilərlər. Diskussiya zamanı kitabxanaçılara Nəsimi irsinin tədqiqatçılarının, eləcə də orta və ali təhsil müəssisələrinin müəllim heyətinin köməyindən faydalanmaq tövsiyə edilir.

Növbəti tədbirlərdən biri də kitabxanalarda Regional Mədəniyyət İdarələri və digər təşkilatlarla birgə regionlararası və ya region daxilində ***"Avropa şərqşünasları Nəsimi haqqında", "Nəsimi ədəbi irsinin tədqiqi məsələləri", "Nəsimi əlyazmaları dünya kitabxanalarında", "Nəsimi və Azərbaycan dili"*** və s. mövzular ətrafında **virtual dəyirmi masa**ların təşkilidir.

Maarifləndirmə xarakteri daşıyan virtual dəyirmi masanı təşkil edən zaman müzakirə olunacaq məsələlər öncədən müəyyənləşdirilməli, iştirakçılar əvvəlcədən təyin edilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalı və mövzu ilə bağlı suallar hazırlanmalıdır. Dəyirmi masaların təşkili zamanı nəsimişünas alimlərin, sahə üzrə tədqiqatçıların, ziyalıların dəvət edilməsi tövsiyə edilir. Burada da telekonfransda olduğu kimi kitabxanaçı tədbirlə bağlı sosial şəbəkələrdə, kitabxananın saytında, yerli qəzetdə elan yerləşdirməlidir. Bu cür tədbirlərin videoçarxlarını kitabxananın saytında, sosial şəbəkələrdə yerləşdirməklə daha çox internet istifadəçisi toplamaq olar.

Özündə milli-mənəvi və ümumbəşəri dəyərləri əks etdirən Nəsimi poeziyasını geniş oxucu kütləsi arasında təbliğ etmək

məqsədilə kitabxanalar layihə çərçivəsində şairin həyat və yaradıcılığına, onun ölməz irsinə həsr olunmuş ***buktreyler – qısametrajlı filmlər*** hazırlaya bilərlər. Bildiyimiz kimi, Nəsimi haqqında ilk tammetrajlı film 1973-cü ildə, şairin 600 illik yubileyi münasibətilə çəkilmişdir. Orta əsrlərin zülməti içərisində günəş kimi parlayan böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin mürəkkəb və faciəli taleyindən bəhs edən filmin rejissoru Həsən Seyidbəyli, ssenari müəllifi İsa Hüseynov idi. Film İsa Hüseynovun ***"Məhşər"*** romanı əsasında çəkilmişdir. Filmdə Nəsimi rolunda Azərbaycanın Xalq artisti Rasim Balayev oynamışdır.

Buktreyler kitabın məzmununu vizuallaşdırmaqla onun ən yaddaqalan və məşhur hissələrini özündə əks etdirən video çarx və ya qısametrajlı filmdir. Müxtəlif proqramlardan istifadə etməklə 3-5 dəqiqədən artıq olmayan film hazırlanır, mətn, musiqi yazılır, montaj edilir. Belə çarxlar geniş yayılmış video hostinqlərdə və sosial şəbəkələrdə yerləşdirilir. Buktreylerlərin hazırlanması üçün kitabın seçilməsi, süjet xəttinin video formatın müəyyənləşdirilməsi zəruridir. Nəsimi yaradıcılığına nəzər saldıqda aydın görünür ki, onun hər bir qəzəli, hər bir lirik şeiri bir möhtəşəm əsərdir. Odur ki, kitabxanalarda Nəsiminin "Məndə sığar iki cahan...", "Mən mülki-cahan, cahan mənəm mən!", "Etməgil...", "Ağrımaz", "Ayrılır" qəzəllərinə buktreyler hazırlamaq olar. Eyni zamanda Nəsiminin həyat və yaradıcılığı ilə bağlı çap olunmuş kitablar barədə buktreylerlər də hazırlamaq məqsədəuyğun olar. Kitabxanaçılar ***"XIV əsrdə Azərbaycanda ictimai-siyasi vəziyyət və Nəsiminin ədəbi mühiti", "Nəsimi fəlsəfəsi", "Nəsimi yaradıcılığında Quran motivləri", "Aşıq poeziyası və Nəsimi yaradıcılığı"*** və s. mövzular əsasında müsabiqə elan edərək, gənc oxucuları buktreylerlərin hazırlanmasına həvəsləndirə bilərlər.

Qeyd edək ki, buktreyler müsabiqəsi gənclərin yaradıcılıq fəaliyyətini stimullaşdırmaqla yanaşı, onlara bu dərin fəlsəfi dünyagörüşün əsl mahiyyətini dərk etməkdə faydalı olar.

Layihə çərçivəsində həyata keçiriləcək maraqlı tədbirlərdən biri də **“Kitab karvanı”**dır. Tədbir bir rayonun kitabxana filialları arasında və ya regional kitabxanalar üzrə təşkil edilə bilər.

Tədbirə hazırlıq zamanı karvanın marşrutları və istiqamətləri, oxucu auditoriyası (yaş həddi nəzərə alınaraq) müəyyənləşdirilməli, karvan boyu keçiriləcək tədbirlərin (kitab təqdimatı, Nəsimişünaslarla görüşlərin təşkili, ədəbi-musiqili görüşlər, viktorinalar və s.) ssenarisi hazırlanmalıdır. Karvanın dayanacağı məntəqələrdə müvafiq region kitabxanasının əməkdaşları arasından seçilmiş, proqram üzrə əvvəldən təyin edilmiş şəxslərin yerləşdirilməsi, karvanda yola düşəcək iştirakçıların tərkibinin və vəzifələrinin müəyyənləşdirilməsi, məntəqələrdə nümayiş etdiriləcək Nəsiminin həyat və yaradıcılığı ilə bağlı kitab, qəzet və jurnalların əvvəlcədən seçilməsi, KİV-də reklam və təbliğat məlumatlarının yerləşdirilməsi, məlumat xarakterli vərəqələrin, bukletlərin çapı və s. zəruridir. Tədbir təkcə kitabxanada deyil, digər mədəniyyət müəssisələrində, açıq havada, parkda təşkil edilə bilər.

Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş informativ xarakterli videoçarxların hazırlanması da yubiley ilində olduqca faydalıdır. Videoçarxda şairin doğma diyarı Şamaxı şəhərinin, Nəsiminin Hələb şəhərindəki **“Nəsimi təkyəsi”** adlanan məqbərədə yerləşən məzarının fotoları, həmçinin, şairin Mikayıl Abdullayev tərəfindən çəkilmiş portreti, “**Nəsimi**” metrostansiyasının fotoları, qəzəlləri əsasında çəkilmiş miniatürlərin, şairin qardaşının Şamaxıda dəfn olunduğu Şaxandan qəbiristanlığının və **“Şaxandan türbəsi”**nin görüntüləri yer ala bilər. Videoçarx hazırlayarkən şair haqqında maraqlı məlumatlar və ona həsr olunmuş musiqilər səsləndirmək olar. Məlumat xarakterli video çarxların hazırlanması kitabxanaya gələ bilməyən fiziki qüsurlu oxucular üçün də faydalı ola bilər.

İmadəddin Nəsiminin həyatı, bizlərə miras qoyduğu əvəzsiz irsi ilə bağlı il ərzində kitabxanalarda informasiya xarakterli nəşrlər: əsərlərinin tövsiyə ədəbiyyat siyahısı, buklet, əlfəcin,

daycest hazırlamaq olar. Daycest - ("digest"- ingilis dilindən tərcümədə "xülasə", "toplu" mənasını verir) çap olunmuş dövri nəşrlər haqqında qısa xülasədən ibarət siyahı və ya çap kataloqu kimi izah edilir. Daycestin hazırlanması həm oxucular, həm də tədqiqatçı-alimlər, mütəxəssislər üçün olduqca önəmlidir. Bu məqsədlə kitabxanaçı-biblioqraflar müəyyən dövr ərzində İmadəddin Nəsimiyə, onun həyat və yaradıcılığına həsr olunmuş dövri nəşrlərdə dərc edilmiş məqalələri seçərək qısa xülasələrini verməklə daycest hazırlaya bilərlər. Kitabxanaçılara kömək məqsədilə qeyd etmək istərdik ki, Milli Kitabxananın elektron kataloqunda **(http://ek.anl.az/search/query?theme=e-kataloq)** axtarış aparmaqla həm Nəsimi haqqında dərc edilmiş məqalələrin biblioqrafik təsviri, həm də tammətnli resursu ilə tanış olmaq olar. Daycestlər aşağıdakı mövzularda tərtib edilə bilər: ***"Nəsimi əlyazmaları Türkiyə mənbələrində", "Nəsimi dilinin frazeologiyası", "Nəsimi yaradıcılığında kamil insan obrazı"*** və s. Hazırlanmış daycestin elektron versiyasını (linkini) kitabxananın saytı və sosial şəbəkələr vasitəsilə paylaşmaq tövsiyə olunur.

Qeyd edək ki, kitabxanaçılar il ərzində xidməti ərazidə yerləşən müxtəlif mədəniyyət və təhsil müəssisələri, istirahət mərkəzləri və xəstəxanalara, yaşlı və fiziki qüsurlu şəxslərin evlərinə səyyar xidmət təşkil edərək Nəsimi şəxsiyyətini, onun zəngin irsini oxucular arasında geniş təbliğ etməlidir. Xüsusilə turistik zonalarda, istirahət mərkəzlərində, mehmanxanalarda təşkil edilən kitabxana xidməti təkcə yerli əhaliyə deyil, daha çox şəhərimizin (rayonun) qonaqlarına Nəsimi kimi dünya şöhrətli şairi daha yaxından tanıtmaq məqsədi daşıyır.

# ƏLAVƏLƏR

**Əlavə 1**

## Görkəmli şəxslər İmadəddin Nəsimi haqqında

Böyük Nəsiminin 600 illiyini keçirəndə, onun heykəlini qoyanda, onun əsərlərini yayanda və onun məzarını Suriyanın Hələb şəhərində ziyarət edəndə, yenə də məhz Azərbaycanın milli mədəniyyətinin nə qədər zəngin olduğunu bir daha dünyaya göstərmək məqsədi daşımışdım.

***

... Tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir.

**Heydər Əliyev,**
*ümummilli lider*

İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevril-

miş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Nəsimi XIV-XV əsrlərdə yaşayıb-yaradıb. O, Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynayıb, Azərbaycan poeziyasının şah əsərlərini yaradıb, Azərbaycan ədəbi dilinin əsasını qoyub. Nəsimi poeziyası müasir dövrümüzdə də yaşayır və aktualdır.

**Leyla Əliyeva,**
*Heydər Əliyev Fondunun vitse-prezidenti*

Nəsimi zamanında böyük bir şöhrət qazanmış, özündən sonra gələn şairlər üzərində dəxi böyük təsir buraxmışdır.

... Bütün ilham və təsirini öz məsləkindən alaraq yazmışdır... Durğun göllər kimi sakit görünən qəlbi bəzən coşqun dənizlər kimi çalxalanır...Şair öz z amanına görə qüvvətli və mətin bir lisan sahibidir.

... Füzuli, Xətai, Həbibi və bir çox digər Azərbaycan şairlərində dilcə, sənətcə Nəsiminin təsiri görünməkdədir.

**Abdulla Şaiq,**
*şair, dramaturq,*
*Əməkdar incəsənət xadimi*

Bu amansız, nadan, qanlı əmr o zamankı ruhanilərin fitvası ilə həmahəng idi. Bəlkə də, o gün, Hələbin qızmar günəşi köz kimi yandırır, onun işığından gözlər qamaşırdı. Lakin mövhumat və istibdadın məşum qara kölgəsi insanların üstünə düşmüş, onların qəlbindən ağrılı-acılı bir fəryad qoparmışdı. Belə insanlar olmasaydı şairin adı, şeiri, xatirəsi bu günə qədər qalardımı? Nəsimi qan aparırkən *"mən günəşəm. Günəş qürub edəndə*

*saralar"* deməyə haqlı idi. Lakin illər, əsrlər onun yüksək poeziyasını susdura bilmədi, saralda bilmədi.

**Rəsul Rza,**
*Xalq şairi*

İmadəddin Nəsimi Azərbaycan xalqının dünya ədəbiyyatına bəxş etdiyi böyük şairlərdən biridir. O, son dərəcə nadir istedad və orijinal sənətkar idi. Dünya ədəbiyyatının ölməz klassikləri içərisində onun heykəli elələri ilə yanaşı durur ki, onların həyatı və yaradıcılığı mütərəqqi siyasi ideallarla estetik təfəkkürün vəhdətini təşkil edir. Bədii söz Nəsiminin əlində inam və əqidələri yolunda mübarizə silahı idi. O, qayəsiz, fikirsiz, idealsız bir şeir yazmamışdır.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı, akademik*

Nəsiminin əsərləri Azərbaycan dilində yaranan şeirin inkişafında öz mütərəqqi xüsusiyyətləri ilə mühüm rol oynamışdır. Çox mürəkkəb və ziddiyyətli bir inkişaf yolu keçmiş olan istedadlı sənətkar Azərbaycan ədəbiyyatında ana dilində yaranan fəlsəfi şeirin əsasını qoymuşdur.

***

Nəsimi Azərbaycan şeir dilini yüksək bir zirvəyə qaldıran, öz əsərlərində dövrün mütərəqqi fikirlərini tərənnüm edən, böyük Nizaminin Şərq ədəbiyyatına gətirdiyi qabaqcıl ideyaları davam və inkişaf etdirib öz amalı uğrunda yorulmadan mübarizə aparan və bu yolda mərdliklə ölümə gedən fədakar bir sənətkardır.

**Həmid Araslı,**
*akademik*

Nəsimi şair və mütəfəkkir kimi öz zamanının ən qabaqcıl, mütərəqqi simalarından idi. Onun zəngin bədii irsi də, mənalı həyatı və faciəli aqibəti də böyük tarixi əhəmiyyətə malikdir.

Nəsimi bir insanpərvər kimi, insan dostu kimi əsrlər arxasından irəliyə, gələcəyə baxırdı. Onun gözəl fikirləri, xoş arzuları, böyük sənət əsəri olan şeirləri bu gün daha yüksək qiymətləndirilir.

**Məmməd Arif Dadaşzadə,**
*akademik*

Azərbaycan ədəbiyyatında ilk dəfə Xaqani, Nizami kimi böyük humanist sənətkarlar insanın insan tərəfindən alçaldılmasına qarşı çıxaraq etiraz səslərini qaldırmışlar. Onların mütərəqqi ənənəsini doğma dildə davam etdirən ən böyük mütəfəkkir şair isə Seyid Əli İmadəddin Nəsimi oldu. Məğrur şəxsiyyət, nadir istedadlı şair Nəsimi insan şəxsiyyətinin alçaldılması ilə heç cür barışa bilmir, bütün varlığı ilə bu ədalətsizliyə kəskin etiraz edirdi.

**Bəkir Nəbiyev,**
*akademik*

Cəmi 48 il ömür sürmüş və 3 dildə: Azərbaycan, fars və ərəb dillərində böyük və zəngin ədəbi irs yaratmış İmadəddin Nəsiminin şeirlərində ifadə olunan yüksək humanizm, dünyəvilik, mənəvi kamillik, ictimai ədalət və ilahi eşq ideyaları zamanı daha da irəli aparan çağırışlardır. Nəsiminin böyük idealları müasir dövrün də ideyalarını əks etdirir, onun əsərləri insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırmaqda davam edir.

**İsa Həbibbəyli,**
*akademik*

Nəsimi insanı sevməsi ilə bu gün bizim üçün əzizdir. Nəsimi Azərbaycan dilinə, o dövrdə, bəlkə də ədəbi dil üçün hələ xarakterik olmayan dil və üslub məqamlarını gətirdiyinə görə bizə əzizdir. Nəsimi öz təfəkkür tərzinin yeniliyi ilə bizim üçün əzizdir. Nəsimidə çox yüksək və geniş şəkildə dünyaya, bəşəriyyətə məhəbbət hissləri öz əksini tapıb. Nəsimi ayrı-ayrı xalqları,

ayrı-ayrı dinlərin nümayəndələrini deyil, bütün insanları, bəşəriyyəti sevir, bu onun şeirlərində özünü göstərir.

**Kamal Abdulla,**
*akademik*

Nəsimi bir şair kimi əvəzedilməzdir. İzəddin Həsənoğlu, Qazi Bürhanəddin, Qul Əli ilə yanaşı Nəsimi də anadilli poeziyamızın beşiyi başında durur və məhz ona görə Azərbaycan ədəbiyyatının çoxəsrlik humanist ənənələrini öz əsərlərində yaşadıb, davam və inkişaf elətdirib.

**Teymur Kərimli,**
*akademik*

Nəsimi – böyük humanist şair, insanı ilahiləşdirən, onu ucaldan bənzərsiz şeirlərin müəllifi, Azərbaycan dilinin formalaşmasında müstəsna rol oynamış şairimizdir. Onun yaradıcılığının ideya-mövzu və bədii-estetik cəhətləri, bütövlükdə poetikası şairi orta əsrlərin ən qüdrətli söz və fikir sərrafları ilə bir cərgəyə qoyur. Şairin azad ruhu, cəsarəti, həqiqətpərəstliyi, qorxmazlığı, orta əsrlər qaraguruhunun bütün sahələrdə tüğyan etdiyi bir dövrdə nadanlığa, cəhalətə qarşı "ənə-l-həq" deyən insanın möhtəşəm üsyanı idi.

**Gövhər Baxşəliyeva,**
*akademik*

Azərbaycanın dahi şairi Nəsimi bu xalqın dərdlərinin, əzablarının şairi, haqq-ədalət carçısı olub. Bütün əzab-əziyyətlərə, incidilmələrə, tərki-Vətən edilməsinə baxmayaraq, öz yazdıqlarının üstündən xətt çəkməyib, əqidəsindən dönməyib. Belə bir dahi şairin, böyük söz adamının xatirələrdə, hafizələrdə, yaddaşlarda yaşaması təbiidir. Azərbaycan, fars və ərəb dillərində çoxsaylı orijinal əsərlərin müəllifi olan Nəsiminin xüsusilə poeziya və ədəbi dilin inkişafında əvəzsiz xidmətləri olub. Nəsiminin yaradı-

cılığı dilçilik, eləcə də Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir.

**Nizami Cəfərov,**
*akademik*

Nəsimi insan düşüncələrinə çox dərindən vaqif olub və özündən sonrakı ədəbiyyata böyük təsir göstərib. Nəsimi düşüncə modelləri yaradan mütəfəkkir idi. Ondan sonra da Azərbaycan dilində yazanlar olub, lakin onlarda Nəsiminin dili qədər melodiklik, ifadə plastikası olmayıb. Nəsiminin xidməti təkcə Azərbaycan türkcəsində yazması ilə bitməyib. Onun, həmçinin davamçıları yetişib ki, onlar da öz yaradıcılıqlarında Nəsimi kimi saf bir dildə yazmağa çalışıblar və bütün bunlar Azərbaycan dilinə, ədəbiyyatına öz təsirini göstərib.

**Rafael Hüseynov,**
*akademik*

Nəsimi öz mərdanə ölümü ilə düşmənlərini belə təəccübləndirmiş, insanların qəlbində əsrlərlə yaşamasına zəmin yaratmışdır.

**Əliyar Səfərli,**
*filologiya elmləri doktoru, professor*

Nəsimi öz yaradıcılığında Azərbaycan xalqının arzu və istəklərini, ümumbəşəri dəyərləri, insanın fövqəlbəşəri varlıq olmasını tərənnüm edib. Lakin Nəsimi istedadının miqyası o qədər geniş idi ki, o, öz yaradıcılığı ilə yalnız Azərbaycan xalqına məxsus deyildi. Mənəvi azadlığa, bəşəri dəyərlərə, insana sevgiyə, azadlıq və əmin-amanlığa çağırış Nəsimi yaradıcılığının himni idi.

**Elçin,**
*Xalq yazıçısı*

Üç dili mükəmməl bilməsi sayəsində Nəsimi Yaxın Şərq bədii fikrinin ən gözəl nailiyyətlərinə yiyələnmiş, geniş biliyə, parlaq istedada, yüksək sənətkarlıq mədəniyyətinə malik ustad bir

şair kimi Azərbaycan şeirinə və türk xalqlarının ədəbiyyatına yeni istiqamət vermişdir.

**Mirzağa Quluzadə,**
*filologiya elmləri doktoru,*
*professor*

Nəsimi Azərbaycan dilini yaşadığı əsrin (XIV əsrin) qabaqcıl fikir və arzularını ifadə edən yüksək dil səviyyəsinə qaldırdı. Nəticədə Azərbaycan dili ideallar uğrunda mübarizə aparan bir dilə çevrildi. Eyni zamanda, Azərbaycan dili dövrünün təbliğat və təşviqat dili olmaqla yanaşı, Nəsimi fəlsəfəsini müasirlərə və gələcək nəslə çatdırdı.

**Buludxan Xəlilov,**
*filologiya elmləri doktoru, professor*

Nəsimi bütün həyatı və yaradıcılığı boyu müqəddəs amalları uğrunda cəmiyyət ilə mübarizə aparıb. Tarix və ilahi ədalət bir daha göstərir ki, bu mübarizədə Nəsimi qələmi qalib gəlib. Nəsimi humanist ideyalar uğrunda apardığı mübarizəsi ilə əbədilik qazanmağa və qəlblərdə yaşamağa nail olub. 1973-cü ildə mütəfəkkir şairin 600 illik yubileyinin, 2017-ci ildə isə vəfatının 600 illiyinin YUNESKO səviyyəsində qeyd olunması onun dahiliyinin və əbədiyaşarlığının bariz nümunəsidir.

**Firəngiz Əlizadə,**
*Xalq artisti, professor*

Nəsimi təkcə şair yox, həm də sufidir, mütəfəkkirdir, böyük düşüncə və mənəviyyat adamıdır. Onun yaradıcılığı, sənətkarlığı çox ucadadır. Nəsimi təkcə Azərbaycan xalqının yox, bütün dünyanın ən nəhəng söz adamlarından biridir. O, dünya vətəndaşı, bəşəri şəxsiyyətdir, bütün dövrlərin qürurudur.

**Azər Paşa Nemətov,**
*Xalq artisti*

Alman fəlsəfə tarixində Nitsşenin özünəməxsus yeri var. Bu baxımdan onu Nəsimi ilə müqayisə edə bilərik. Axı Nəsimi də Azərbaycan təfəkkür tarixinin böyük şairidir. O, öz dövrü üçün təhlükəli olan yeni üsyankar təfəkkür, düşüncə gətirdi. Nitsşedə də eyni hadisə təkrarlandı. Lakin fərqli tərzlərdə… Nəsimi fəsləfəsi də tam obyektivliyi ilə tanıdılmayıb. O, dünya səviyyəsində araşdırılması gərəkən çox böyük mütəfəkkirdir, haqqında yeni, daha səhih kitablar yazılmalıdır.

**Mixael Hess,**
*alman alimi, nəsimişünas*

Cordano Bruno Qərb dünyasının Nəsimisi sayılmaqla fəxr edə bilər... Dahi Nəsimi şahlar, sultanlar, xaqanlar dövründə cəhalət zülmətində ictimai ədalətsizlik hökm sürən bir zamanda Prometey kimi canını, qəlbini məşələ döndərib qaranlıqlara ildırım təki şəfəq saçmışdır. Buna görə də onun müdrik və hikmətli sözləri dünya durduqca zülmətləri parçalayıb nəsillərdən -nəsillərə keçə-keçə örnək olacaq. Nəsiminin dərin mənalı diqqətəşayan sözlərini oxuduqda heyrətlənməmək, qürur, fərəh duymamaq olmur.

**Cozef Nort,**
*ABŞ yazıçısı*

XIV əsrdə şair olmaq qorxusu, XII əsr Nizami dövrünə görə daha təhlükəli idi. Bu dövrdə Nəsimi adlı bir şair yetişmişdir... Nəsimini diri-diri dabanından soydular və sonra Hələb şəhərinin qapılarından asdılar. Altı əsr özündən sonra yetişmiş Musa Cəlil kimi, Nəsimi də son nəfəsinə qədər yazıb-yaratmışdır.

**Lui Araqon,**
*fransız yazıçısı, şair,*
*ictimai xadim*

İmadəddin Nəsiminin yaşayıb yaratdığı dövrdən bizi ayıran altı əsr bu nəhəngin poeziyası üzərindən qələm çəkə bilməmişdir.

Yaradıcılığı dünya ədəbiyyatı xəzinəsinə daxil olmuş böyük Azərbaycan şairinin adı bu gün də göy qübbəsində ən böyük ulduzlardan biri kimi parlayır və öz şəfəqləri ilə üstümüzə işıq salır.

**Bobocan Qafurov,**
*akademik (Tacikistan)*

Nəsiminin doğma ədəbiyyat qarşısında başlıca tarixi xidməti yazılı ədəbiyyata Azərbaycan dilini gətirməsidir. Şərq poeziyasının ərəb və fars dillərində yazdığı bir dövrdə onun doğma dildə yazılmış gözəl "Divan"ı parlaq şəkildə sübut etdi ki, Azərbaycan dilində də gözəl nəzm əsərləri yaratmaq mümkündür.

**Sergey Vasilyev,**
*rus şairi*

**Əlavə 2**

# NƏSİMİ BƏDİİ ƏDƏBİYYATDA

## Şəhidliyin zirvəsi

*"Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,*
*Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz!"*
***İmadəddin Nəsimi***

**I**

Altı yüz ildir idrak
çırpınır pələng kimi,
Nərə çəkir, ağlayır,
tapa bilmir ki,
bilmir -
o bir sirr-xudanı.
Təpədən dırnağadək
soyalar bir adamı;
Necə ola dinməsin,
Böyük əqidəsindən
Bir misralıq enməsin.
Gözündən bir nöqtə yaş
sinəsinə düşməsin.
Qaşları çatılmasın
bir xırda vergül qədər,
Diri-diri soyulsun,
əqidədən keçməsin.
Altı yüz ildir bəşər
ağrılardan inildər.
Altı yüz ildir bəşər
düşünər, çatmaz yenə
Məşəqqətli ölümün
Nəsimi zirvəsinə.
Altı yüz ildir,
altı,

Nəsimini soyurlar,
Qanlı yaralarına
Hələ duz da qoyurlar.
“Uf” da demir
Nəsimi.
Əmmaməlilər baxır
Dəli suçlular kimi.
Təpədən dırnağadək
soyurlar,
özləri qorxur neçin?
Göylərə göz dikirlər
Şəhidi görməməkçin,
İlahi də görünmür!
Onun qorxusu nədi?
Niyə azad eləmiş
hər ağrıdan şəhidi?
Şəkki-şübhə
başını qaldırdı, dedi,
“Ay aman,
Tanrı dəhşətə gəlmiş,
qaçmış yaratdığından!”
Təpədən dırnağadək
əqidə olan kəsi
Dırnaqdan təpəyədək
soydu xəncər tiyəsi,
Şəhid, odur,
Nə dindi,
göz yaşı tökdü nə də,
O oldu yer də,
göy də
İlahi də,
bəndə də.
Amalıyla ağrısı
birləşib daha güclü
bir qanadla
Tanrı tutası yerə
uçub, o bülənd oldu.
Küfr edən də çox oldu,

duyub bilən də oldu.

## II

Yarımölümdən ötrü
azmı ağlayan olmuş,
Azmı könlə,
beyinə
qorxu qurşunu dolmuş?
Xırda yarasının da
ağrısını
doğmaca balasıyla bölənlər.
Ölümün gəlişini
eşidəndə ölənlər,
Bir qəzəbli baxışın
ucunda tir-tir əsən
Adam görsən, Nəsimi,
əlbət, heç nə deməzsən
Ləkələməzsən əsla
Yazmaq istedadını,
ölmək istedadını,
Dinməzsən ucalardan,
Enməzsən ucalardan.

## Epiloq

O, altı yüz il qabaq
Dərisindən çıxaraq
Göylərə baxa-baxa,
Dözüb hər məşəqqətə,
Getdi əbədiyyətə,
Al qanı axa-axa,
Yeridi, gücü artdı.
Tarixləri qızartdı.

**Əli Kərim**
*1969-cu il*

## Nəsimi

Dinlə, rəssam, sözümün hikmətini,
Burda kim gizləyəcək heyrətini?
Dini-islamə tapındıqca elin
Sındı fırçan və əlin!

***

“Şəkli çəkdin – ona can verməlisən,
Qəlbinə sən həyəcan verməlisən,
Onu hökmünlə danışdırmalısan,
Küsdürüb sonra barışdırmalısan,
Ağladıb sonra da güldürməlisən!
Yaşadıb sonra da öldürməlisən”
Belə bir hökmü şəriət verdi,
Fırçana bax, belə qiymət verdi
Bunu Allah bacarar-söylədi o,
Sənə rəsmi qadağan eylədi o.

***

Keçdi günlər, sənələr, keçdi zaman
Rafael sənətini gördü cahan,
Rembrandtın adını bildi bəşər
Tək səni din ilə zəncirlədilər
Öldü könlündə Qobustan rəsmi,
Bu qədim torpağa dastan rəsmi
Nə Füzuli, nə də Vaqif o zaman
Düşmədi bircə kağız parçasına,
De, rəvadırmı gözəllik yaradan
Əl buxovlarda qala, fırça sına?!
İndi zəhmətlə açırsan səhəri:
Oxuyub cüngləri, təzkirələri
Altı yüz il geri addımlayaraq
Qanlı-qırğınlı, fəqət doğma uzaq
Aləmi birdə görürsən, rəssam!
Sənə bir canlı qanaddır ilham.
Babamız şair İmadəddini sən

Əbədən görməmisən.
Sən xəyalən çəkəcəksən deməli?
Nə böyükdür əməlin!
Çəkəcəksən, bilirəm qüdrətini,
Çünki, dünyaya sənin şöhrətini
Nə zamandır ki, tanıtmış fırçan.
Qardaşım, bircə ricam ancaq:
Sən Nəsimini çəkərkən elə çək
Baxışından səpələnsin şimşək
Günəşin nurunu doldur gözünə,
Kişilik nəqş elə dönməz üzünə
Kişilik – atəşə yansın, dönməz!
Soyunub buzda uzansın – dönməz!
Kişilik – tərsə soyulsun – dönməz!
Gözü xəncərlə oyulsun – dönməz!
Kişilik – rütbədən ensin – dönməz!
Əyninə dərdi geyinsin – dönməz!
Kişilik – bir tikəsin daldalamaz!
Kişilik – söz dedi – udmaz, yalamaz!
Kişilik – başladı qoymaz yarıda!
Söyləyər qul da mənəm, şah da mənəm.
O salar heyərətə allahları da,
Söyləyər tanrı da, allah da mənəm!
Babamız şair İmadəddini sən
Qardaşım, bax bu sayaq çəkməlisən.
Rəsmini seyrə dalarkən hər kəs,
Donub heyrətdə qalarkən hər kəs,
Biri: - Yalnız Qalileydi bu! – desin
Biri israr ilə: - Cordanodur!
Tez Nəsimini düşünsün birisi:
- Bu odur, – qoy desin, ancaq bu odur!!!
Bu olar şeirin al səmasında,
Bu olar tanrı iddiasında!

**Əliağa Kürçaylı**
*1972*

## “Nəsimi” poemasından bir parça

Hələbin üstündə tozlu bir duman...
Günorta azanı...
Allahu əkbər...
Səhər azanından ta bu vaxtacan
Saat meydanına axışır şəhər.
Hökm:
– Əmir Mahmud Seyyid Əli
İmadəddin Nəsimi Şirvani
İttiham edilir iki mənayə...
Birinci odur ki, bəni-insani
O qaldırıb qoyub ərşi-əlayə.
Küfr təbliğ edir əşarıyla o.
“Ənəlhəq” - mənəm həq şüarıyla o.
Şirvandan Hələbə yol gələ-gələ
Sakit zehinlərə salıb vəlvələ...
Çox zindiq sataşıb Allaha, dinə,
Ancaq tay olmayıb İmadəddinə.
O, həşərat kimi yerdə yeriyən,
Qarıncalar kimi artıb törəyən,
Əsnəyən, asqıran, ağlayan, gülən,
Gündə saysız-saysız doğulan, ölən,
Bax, bu biz məxluqa söyləyir Allah,
Ağır föhş... böyük şər... yuyulmaz günah...
– Qaradan o yana kim rəng görüb, kim?
– Kəsdim əl Hilalın sözünü, kəsdim.
Dedim: - Əgər sizə desəydim Allah,
Bax, bunu sayardım qəbahət, günah...
Yaşbəkin qılıncı parladı bu an,
Hökm davam etdi yenə ucadan:
– Deyil Nəsiminin fikri mücərrəd,

Fikri müəyyəndir, şərhi müqəyyəd
“Ənəlhəq!” Allaham yəni mən – deyir,
Özünü Allaha tutur tən, deyir.
Deyil Nəsiminin fikri mücərrəd...
İqrar eləyir ki, hürufi mürtəd:
Üzümdə zahirdir sirri-kainat...
Gözümdə çağlayır sövdalı həyat.
Mənalar ümmanı kəmalım, deyir,
Göylərdən dərindir xəyalım, deyir.
Üzünə yazılıb Quran da zira...
Baxın, sifətinə siz baxın bir a!
İkinci mənası bu ittihamın,
Bu ibrət məktəbi, bu izdihamın
Bir az da dərindir, bir az da incə...
Budur mülahizə ona gəlincə:
Nəsimi ləhcəsi, Nəsimi dili,
Hürufi əməli, hürufi feli
Misir dövlətinə atılan daşdır,
Məmlük qüdrətinə atılan daşdır...
Şirvandan bu yana bütün türk eli,
Türki yazı yazan Nəsimi əli...
Sultan Müəyyədə uzanan bir əl,
Sultanı sarsıtmaq istəyən əməl...
Qaraqoyunlular, Fərman paşalar,
Kərkük, Zülqədriyyə, Məlatiyyə həm
Üsyançı şairə çıxıb havadar.
Misirsə basılmaz, məmlüksə möhkəm.
Dinə, siyasətə kim salsa nifaq
Tənbehi, cəzası ölümdür ancaq.
Dinə, siyasətə bir asi kimi
Dabandan soyulsun zindiq Nəsimi.
Edam özgə yerdə edilsin yasaq,
Saat meydanında qoy olsun ancaq.
Kəsilsin əlləri, ayaqları qoy!
Bir para hakimə getsin “hədiyyə”,

Dincəlsin Qaraman torpaqları qoy,
Bağdad, Zülqədriyyə və Məlatiyyə...
Hökmün bir sözünü olmaz dəyişmək,
Hökmün icrasına məsuldu Yaşbək.

***

Asta meh küləyə çevrildi sanki,
Yox elə çevrildi... çevrildi, gördüm.
Gözümdə kainat devrildi sanki,
Yox elə devrildi... devrildi, gördüm.
Təbillər istədi gurlasın əlan,
Şeypurlar dodaqda qaldı dotələb.
Əl Hilal işarə eylədi: - Dayan.
Cəlladın önünü kəsdi mirqəzəb.
Əl Hilal söylədi: - Camaat, dinlə,
O qədər düşməndir Nəsimi dinlə,
O qədər danıb ki, həqqi-taalanı
Kimin harasına sıçrasa qanı
O yer yerindəcə kəsilməlidir,
Hamı eşitməli və bilməlidir.

***

Dedilər: – Son sözün?
Dedim müxtəsər,
Eşitsin, eşitsin bütün fəqihlər:
"Bulmuşam həqqi, Ənəlhəq söylərəm.
Həq mənəm, həq məndədir, həq söylərəm".
Çarpaz qılıncların altından gərək
Əyilib keçəydim... əyilmədim mən.
Onları başımla kənar edərək
Yeridim... al çeşmə axdı gözümdən.
Edam kürsüsünə qalxdım vüqarla,
Kürsü ağ dəvəyə çevrildi ancaq...
Piri-Muğan gəldi soyulmuş narla,
Gələn - cəllad idi əlində bıçaq.
Kimin barmağına sıçradı qanım?
Kimin barmağına? Düz Əl Hilalın...

Al intiqamımı, ey yaradanım?
Di gəl, fövqəlfəqih, necədir halın?
Meydan uğuldadı: - Gəl, irəli gəl!
Özün öz hökmünə etmirsən əməl?
Camaat qabağa... Əl Hilal dala...
Bir barmaq nədir ki, camaat gülür...
Yaşbək qəzəblənib dözmür bu hala,
Üzündən fəqihə ikrah tökülür
**Əmir Yaşbək:**
- Kim deyir Əl Hilal qorxaqdır? Boş söz!
Belə şey şəninə sığışarmı heç?
Cəllad, tez cənabın barmağını üz!
Bir barmaq nədir ki... Şəhab, bəri keç!
Gözü kəlləsinə çıxır fəqihin,
Qəfil həngamədən tamam büzülür.
Bir gözündə qorxu, bir gözündə kin,
İşarə... ta bayaq barmaq üzülür.
"Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,
Gör bu məğrur aşiqi sərpa soyarlar, ağrımaz".
Zahidin barmağı dərya qanımda
Görünür xırdaca saman çöpütək.
Mənə elə gəlir durub yanımda:
– Gücüm buna çatdı – deyir ki, Yaşbək...
***
Meydan ümman kimi hey dalğalanır,
Qəzəbli baxışlar, dalğın baxışlar,
Kədərli baxışlar, çaşqın baxışlar.
Yanır, yanır, yanır, alışır-yanır.
"Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,
Gör bu məğrur aşiqi sərpa soyarlar, ağrımaz".
Fəqət qanım axır, saralıram mən,
Şənqəşül Hənəfi qayıdır birdən,
İstehzayla deyir gözlərində kin:
– Əgər Allahsansa, axdıqca qanın,
Söylə, bəs nə üçün saralır rəngin?

– Mən eşqin fəcrində qızıl atəşəm,
Zahid, saralmazmı sönəndə atəş?
Mən eşq üfüqündə doğan Günəşəm,
Saralar qüruba dönəndə Günəş!
“Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar...”
Meydan təkrar edir dəhşətlə, təkrar.
Saat meydanında burulur külək,
Açır sarğısını əmmamələrin.
Onları qanımla bayraq edərək
Tufanlı köksünə sancır şəhərin.
Tufanlı, dəhşətli, çılğın bir gecə,
Hələbin başına sovrulur səhra.
Məşəllər od saçır ətrafa necə,
Mis teştin içində qovrulur səhra.
Gəlir qulağıma “Həll-həll!..” sədası,
Şeirim min-min dildə, min-min dodaqda.
Bir şair ömrünün qanlı qəzası...
Yer nalə çəkməkdə, göy ağlamaqda.
Gəlir qulağıma “Həll-həll!..” sədası,
Mənimmi sözümü danışır şəhər?
Bir şair ağlının qanlı bəlası...
Mənimmi dərdimə alışır şəhər?

***

Məşəllər qovuşdu fəcrin nuruna,
Gecə işıq oldu sabaha kimi.
Tarix şəxsiyyətin ən məğruruna
Hələbdə rast gəldi - şair Nəsimi!
Balaca bir dəstə dalğın, pərişan...
Fərat sahiliylə qayıdır geri.
Görünür Ağsaray... azad Qaraman...
Bir də Nəsiminin ayaq izləri.

**Qabil**

*5 aprel 1964 -10 may 1973*

## “Son gecə” poeması (ixtisarla)

Mən Hələbə
nə Kərəm kimi
Əsli sevdası ilə,
nə Qərib kimi Sənəm eşqiylə
gəlmişəm.
Nə başımda sərgərdanlıq havası,
nə didərgin,
nə qaçqın kimi gəlmişəm.
Nə hərb əsiriyəm,
nə qərib.
Məni bura
görmək, götürmək həvəsi gətirib.
Yer üzünün
neçə-neçə ölkəsindən biridir
Suriya;
Hələb onun qədim şəhəri …
… Başlayıram
Son gecənin
qəmli mərdlik dastanını.
Son gecədir.
Saysız gecələr olub
bundan qabaq,
sonsuz gecələr olacaq.
Bu gecə son gecədir.
Həm başlanğıc,
həm nəticədir.
Qala susur, ət yeyib,
qan içib xumarlanan
yırtıcı kimi
hərdən keşikçilərin
səsi gəlir

Allah! Allah!
Bu səsdə həm qorxu var,
həm səksəkəli ümid.
Zindan qapıları bağlıdır
kilid-kilid.
Zindan divarları qazıq-qazıq
dolaşıq, aydın yazı.
Neçə ildir, neçə əsrdir
nəsil-nəsil insan
arzusunu, ümidini
bu daşlara qazıb,
bu daşlara yazıb. …
… Burda keçir son gecəsi
İmadəddinin.
Bir küncdə
diz üstündə oturub:
nə görkəmində məyusluq,
nə gözlərində kin.
Sakitdir.
Təlatümü susmuş
dərya kimi
Ömrü varaqlanır gözündə
qarışıq, dumanlı röya kimi. …
Hələ üfüq arxasındadır səhər.
Son gecənin sıpqar qaranlığı
yubanır daş hücrənin
künc-bucağında.
Dustaq nələr düşünür
gecənin bu çağında…
“Bəlkə bu dözüm,
bu cəsarət əbəsdir.
Bəlkə məni təhrik edən
məlun səsdir.
Yox!

Yox!
Bu, gələcəyə ibrətli dərsdir.
İstər zindanda çürüt,
istər sürgündə qocalt,
istər dara çək,
həqiqət ölümə baş əyməyib.
əyməyəcək!”

**Rəsul Rza**
1973-1974

# Ədəbiyyat

**Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında**: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11 yanvar 2019-cu il // Azərbaycan.- 2019.- 12 yanvar.- S.5.

**Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında**: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 15 noyabr 2018-ci il // Azərbaycan.- 2018.- 16 noyabr.- S.2.

***

**Seçilmiş əsərləri**: iki cilddə / İmadəddin Nəsimi; rəssam A. Rəsul; burax. məsul S. İsmayılova; dizayn Z. Abbasov.- Bakı: Şərq-Qərb, 2013.- C.1: Qəzəllər.- 319 s.; C.2: İctimai-fəlsəfi şeirlər.- 345 s.

**Seçilmiş əsərləri**: [şərhlərlə] /İmadəddin Nəsimi; tərtib edən, şərhlərin və ön sözün müəl. X. Yusifli.- Bakı: Altun Kitab, 2005.- 314 s.

**İraq divanı** / İmadəddin Nəsimi; tərt.ed. və ön soz müəl. Q.Paşayev; red., lüğət və şərhlərin müəll. M.Əsgərov.- Bakı: CBS-PP, 2018.- 383 s.

**Mən bu cahana sığmazam** / İmadəddin Nəsimi; ön söz, tərt., şərh, lüğət və red. Ə. Səfərli.- Bakı: Gənclik, 1991.- 384 s.

***

**Araslı, H.** İmadəddin Nəsimi: həyat və yaradıcılığı / Həmid Araslı; red. M.Quluzadə.- Bakı: Azərnəşr, 1972.- 73 s.

**Həsənoğlu, Ə.** İmadəddin Nəsiminin "İraq divanı"na şərhlər / Əbülfət Həsənoğlu.- Bakı: Mütərcim, 2015.- 575 s.

**İmadəddin Nəsimi**: biblioqrafiya / Tərt. ed. A.C.Xəlilov, red. N.Göyüşov; AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: Elm və təhsil, 2013.- 111 s.

**Nemətzadə, S.** Seyid İmadəddin Nəsiminin dünyagörüşü fəlsəfə tarixinin obyekti kimi / Səbirə Nemətzadə; elmi red. M.Zeynalov.- Bakı: Nurlan, 2008.- 127 s.

**Paşayev, Q.** Nəsimi haqqında araşdırmalar: [məqalələr toplusu] /Qəzənfər Paşayev; elmi red. və ön sözün müəl. B. Nəbiyev.- Bakı: [Qarabağ], 2010.-168 s.

***

**Ayvaz, O.** Nəsiminin yaradıcılığında hürufi görüşlər / Oğuz Ayvaz // Ədalət.- 2018.- 31 iyul.- S. 8.

**Azadi, S.** İmadəddin Nəsimi – 650: Ədəbiyyat üfüqündə doğan bir günəş / Sevinc Azadi // İki sahil.- 2019.- 22 yanvar.- S.12.

**Əliyeva, G.** Şeirimizin "quş dili": İmadəddin Nəsiminin poeziyası haqqında qeydlər / Gülşən Əliyeva // 525-ci qəzet.- 2017.- 6 may.- S.14.

**Hacı, T.** Nəsiminin ölkə poeziyasının inkişafında əvəzsiz xidmətləri olub / Tofiq Hacı // Azad Azərbaycan.- 2019.- 15 yanvar.- S.7.

**Həbibbəyli, İ.** Cahana sığmayan Azərbaycan şairi: 2019-cu il "Nəsimi İli"dir / İsa Həbibbəyli // Azərbaycan.- 2019.- 16 yanvar.- S.1; 6.

**Hüseynov, R.** Məkansız və zamansız / Rafael Hüseynov // 525-ci qəzet.- 2019.- 26 yanvar.- S.8-9.

**Hüseynov, R.** Nəsiminin cavablı və cavabsız sualları / Rafael Hüseynov // 525-ci qəzet.- 2019.- 16 fevral.- S.16-17.

**Qaraoğlu, F.** Tarixdə iz buraxanlar: Nəsimi / Fazil Qaraoğlu // Bakı xəbər.- 2017.- 13 yanvar.- S.13.

**Kərimli, T.** Nəsimi əzablarından Nəsimi harayına: Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin "Nəsimi-

passion” əsərinin videoyazısına baxarkən /Teymur Kərimli //525-ci qəzet.- 2018.- 24 yanvar.- S.7.

**Qurbansoy, F.** Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi Şirvani / Firudin Qurbansoy // Ədəbiyyat qəzeti.- 2018.- 22 sentyabr.- S.12-13.

**Mahmudov, Y.** Nəsimi dövrü tarixi səpkidə təhlil ediləcək / Yaqub Mahmudov // Azərbaycan.- 2019.- 26 yanvar.- S.7.

**Mirələmov, H.** Son səfər: İmadəddin Nəsimi – 650 / Hüseynbala Mirələmov // Azərbaycan.- 2019.- 31 yanvar.- S.6.; 2 fevral.- S.9.; 5 fevral.- S.6.; 6 fevral.- S.7.; 7 fevral.- S.8.; 8 fevral.- S.10.; 10 fevral.- S.7.

## Türk dilində

**Aktaş, H.** Yeni Türk şiirinde Seyyid Nesimi okulu və misyonu / Aktaş Hasan.- Edirne: Yort Savul Yayınları, 2004.- 176 s.

**Araslı, H.** İmadeddin Nesimi : hayat ve yaratımı / Hamid Araslı; çev. C.Cabbarov; edit. Ş.Sona.- Bakü: Azerbaycan Devlet Neşriyyatı, 1972.- 62 s.

**Ayan, H.** Nesimi hayatı, edebi kişiliği, eserleri ve Türkçe divanının tenkitli metni / Hüseyin Ayan.- Ankara: Türk dil Kurumu Yayınları, 2002.-937 s.

**Ünver, M.** Hurufilik ve Kuran. Nesimi Örnegi / Mustafa Ünver.- Ankara, Fecr Yayın evi, 2003.- 270 s.

## Rus dilində

**Избранная лирика:** в двух томах / Имадеддин Насими; худож. М.Абдуллаев; [перевел С. Иванов [и др.]].- 1 Том.- Баку: Азернешр, 1973.- 359 с.

**Я не вмещусь в этот мир**: [стихи] / Имадеддин Насими; [Сост., ред., авт. предисл., послесл., слов. А.Сафарли; худож. А.Мамедов].- Баку: Гянджлик, 1991.- 380 с.

**Имададдин Насими** / Автор и руководитель проекта И.С.Раимов; художник Н.И.Фатуллаева.- Москва: Санкт-Петербург: “Диля”, 2001.- 353 с.

***

**Багиров, А**. Творец божественной поэзии / Абузар Багиров // IRS Наследие.- 2014.- № 2 - С.4-10.

**Ислам, А.** Солнце поэзии и любви Насими: Состоялась презентация иракского “Дивана” великого азербайджанского поэта / Афет Ислам // Каспий.- 2018.- 10 июля.- С.7

## İngilis dilində

**Poems** /Imadeddin Nesimi; comp. V. Aslanov; transl. P. Tempest.- Baku: Yazichy, 1984.- 70 p.

**Arasli, H.** Imadaddin Nesimi: life and creative activity /Hamid Arasli; trans. A. Rza; edited V. Aslanov.- Baku: Azerbaijan State Publishing House, 1973.- 42 p.

**Imadaddin Nasimi**: poet, 1369-1417/ Ministry of Culture and Tourism Republic of Azerbaijan; consulting V. Bahmanli; publishing M. Khan; trans. K. Nasibova; editor N. Jabbarli, J. Huseynov; design T. Farzi; art V. Saftarov.- Baku: Khan, 2015.- 36 p.

# Mündəricat

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin
650 illik yubileyinin qeyd edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .................... 4
Azərbaycan Respublikasında 2019-cu ilin
"Nəsimi ili" elan edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .................... 6
Tərtibçidən ................................................................................ 8
İmadəddin Nəsiminin həyat və yaradıcılığı ................................ 9
İmadəddin Nəsimi irsinin kitabxanalarda təbliği ....................... 17
**Əlavələr**
Əlavə 1: Görkəmli şəxslər İmadəddin Nəsimi haqqında ......... 31
Əlavə 2: Nəsimi bədii ədəbiyyatda ............................................ 40
Ədəbiyyat ................................................................................... 53

**İmadəddin Nəsimi – 650**
(metodik vəsait)

**Nəşriyyat redaktoru**: *Mehriban Cəfərova*

**Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 57**
**E-mail: contact@anl.az**
**URL: www.anl.az**

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.
Sifariş: № 9
Çapa imzalanmışdır: 28.02.2019
Tirajı: 150
Pulsuz